# Tarixi irsə ehtiramla




**Hörmətli oxucu!**
**Dövlətçilik tariximizdə şanlı səhifə olan - Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) nəşr edilmiş "Azərbaycan" qəzetini müasir oxucu üçün əlçatan etmək məqsədilə ADA Universiteti böyük bir layihəni həyata keçirməkdədir.**

Məsələ burasındadır ki, bu günə qədər qəzetin ayrı-ayrı materiallarının ərəb əlifbasından latın qrafikalı müasir Azərbaycan əlifbasına çevrilməsi istiqamətində tədqiqatçılar tərəfindən müəyyən işlər görülsə də, tariximizin ən əhəmiyyətli və zəngin hadisələrlə dolu dövrün əksini öz səhifələrində işıqlandırmış "Azərbaycan" qəzetinin məzmunu indiyədək geniş oxucu kütləsinə çatdırılmamışdır.

Hazırda ADA Universiteti qəzetin tam külliyyatının transliterasiyasını həyata keçirərək, çətin anlaşılan söz və ifadələrin izahı, qəzet materiallarının daha yaxşı oxunmasına kömək edəcək qeydlər və şərhlərlə birgə onun çoxcildlik elmi nəşrini hazırlayır. 20 cildlik nəşrin artıq iki cildi çapdan çıxmış və elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

"Azərbaycan" qəzetinin ilk 4 nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilmiş, 15 sentyabr 1918 - 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim kimi, dövrün qabaqcıl ziyalıları olmuşdur.

"Azərbaycan" qəzetinin nüsxələri Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində, Azərbaycan Respublikasının Dövlət Arxivində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Kitabxanasında pərakəndə halda saxlanmaqdadır. Bir neçə nömrə isə Türkiyə kitabxanalarından əldə edilmişdir.

Cümhuriyyət tariximizin böyük ölçüdə yenidən yazılmasına imkan verəcək bu nəşr həm tarixçilər, həm də ədəbiyyatşünaslar, dilçilər, sosioloqlar, jurnalistlər, politoloqlar və digər mütəxəssislər üçün tükənməz bir mənbə olacaqdır. Digər tərəfdən, geniş oxucu kütləsi, xüsusən cümhuriyyət tarixinə maraq duyanlar bu nəşrdən faydalana biləcəkdir.

Bütün bunlarla birgə, "Azərbaycan" qəzetindəki bəzi materialların müasir dövrümüz baxımından, demək olar ki, "həyati" əhəmiyyət daşıdığını nəzərə alaraq, bu mətnlərin geniş oxucu kütləsinin diqqətinə daha asan və sürətli bir şəkildə təqdim edilməsi, fikrimizcə, məqsədəuyğundur.

Bu baxımdan, 1918-1920-ci illərin "Azərbaycan" qəzetinin materiallarının, bu qəzetin varisi və rəsmi dövlət qəzetimiz olan müasir "Azərbaycan" qəzetinin səhifələrində özünə yer tapması xüsusi əhəmiyyət kəsb edir. Ümid edirik ki, bir əsr əvvəlki "Azərbaycan", müasir "Azərbaycan"ın oxucularının da böyük marağına səbəb olacaq.

**Hafiz PAŞAYEV,**
***ADA Universitetinin rektoru***

Azərbaycan.- 2022.- 21 aprel.- S.8.